**Dünya ifaçılıq sənətinin müasir səviyyəsi fortepiano texnikası sahəsində yüksək nailiyyətlərin əldə edilməsini təsdiq edir. Hazırki dövrdə pianoçular fortepiano texnikasının qeyri-adi, inanılmaz sürəti və keyfiyyətini nümayiş etdirirlər. Onların hər biri texniki mükəmməlliyə nail olmaq üçün öz fərdi yanaşmaları sayəsində qarşıya qoyulan məqsədləri həyata keçirərək bu istiqamətdə mürəkkəb və uzun yol keçirlər.**

# Fortepiano texnikasının problemlərinə dair

**Son nəticədə isə pianoçu texnikası fərdidir - onu hər bir ifaçı sənətdə öz bədii mövzusuna, məramına uyğun yaradır. Halbuki tarixboyu təkmilləşmiş fortepiano ifaçılıq təcrübəsinin nailiyyətləri və qanunauyğunluqlarına arxalanmadan özünəməxsus, şəxsi yanaşma tərzini ərsəyə gətirmək mümkün deyil.**

Fortepiano texnikasının inkişafında bir sıra problemlər mövcuddur ki, bunlar, ilk növbədə, barmaq aparatının dəqiqliyi ilə əlaqədardır. Başqa sözlə desək, pianoçunun barmaqlarının not mətnində qeyd olunmuş klavişlərə təmiz, səhvsiz, dəqiq düşmək vərdişinə yiyələnməsidir.

Aydındır ki, buna müvəffəq olmaq pianoçunun alətin klaviaturası ilə tanışlığından, ona nə dərəcədə bələd olmasından asılıdır. Barmaq aparatının məkan dəqiqliyinin təkmilləşdirilməsi diqqətsiz, səhlənkar ifa ilə vaxtında mübarizə, "təsadüfi" klavişlərə toxunmaq, cüzi səhvlər, kiçik nöqsanlar və ümumiyyətlə "səliqəsiz" adlanan ifanın aradan qaldırılması sayəsində əldə edilə bilər. Bu baxımdan əsər üzərində işin ağır tempdə aparılması xüsusi əhəmiyyət kəsb edir.

Pianoçunun işində bu vacib komponent əlverişli və rahat hərəkətlərin tapılmasında, hər bir barmağın lazımi klavişə qoyulmasında, son nəticədə əsas texniki bacarıq və vərdişlərin qazanılmasından ibarətdir. Təcrübəli pianoçular ağır tempə xüsusi diqqət ayırırlar. Belə ki, o, vacib sayılan hərəki-texniki bacarıq və vərdişlərin bünövrəsini qoyur. Bununla bərabər nəzərə almaq lazımdır ki, hətta ağır tempdə çalmaq, səs, yəni pianoçunun ifasında royalın necə səslənməsi, başqa sözlə, bədii təcəssüm problemi ilə bilavasitə əlaqədardır.

Əsəri ağır tempdə öyrənərkən pianoçu konkret səs ifadəsinə müvafiq düzgün, əlverişli ifa hərəkətləri taparaq, məhz səs vasitəsilə bədii potensialı təcəssüm etdirir, fortepiano texnikasının çalar-kolorist yönünü mükəmməlləşdirir. Ağır tempdən tədricən və ardıcıl cəld tempə keçid əsərin əsaslı surətdə öyrənilməsini təmin edərək pianoçunun ifasını müxtəlif nöqsan, səliqəsizlik, səhlənkarlıqdan saxlayır, keyfiyyətsiz çalğı ehtimalını azaldır.

Həm ağır, həm də cəld templərdə məşqlər, ən əsası isə ifa sürətinin tədricən artırılması hər bir pianoçunun iş prosesinin mühüm prinsiplərindəndir. Belə ki, yalnız ağır tempdə çalaraq cəld ifa etməyi öyrənmək mümkün deyil. Lakin, musiqi əsərinin öyrənilməsinin ilkin mərhələsində cəld templərdən sui-istifadə etmək məqsədəuyğun deyil.

Texniki cəhətdən çevik ifanın səs baxımından mənasız, solğun, maraqsız, yeknəsək olmasına yol vermək olmaz. Fortepiano texnikasının parlaq boyaları yalnız bədii repertuar üzərində iş prosesi zamanı deyil,

həmçinin etüdlər, çalışmalar, qammalar, ən sadə və kifayət qədər mürəkkəb passajların öyrənilməsində belə nəzərdən kənarda saxlanılmamalıdır. Hər bir qarşıya qoyulan texniki məqsəd həm də müəyyən tembr-kolorist məqsədin həyata keçirilməsini təxmin edir.

Fortepiano texnikasının daha bir problemi səslənmənin rəvanlığıdır. Səslənmənin tədricən güclənməsi və zəifləməsi ilə əlaqədar olan səs sırasının tənləşdirilməsindən kənar fortepiano səslənməsinin çalarları haqqında fikir yürütmək olmaz. Səs rəvanlığına nail olmaq barmaqların fərdiliyinin fərqliliyi ilə şərtlənərək düzgün seçilmiş applikatura və daha zəif barmaqların xüsusi çalışmalarla inkişafı vasitəsilə həyata keçirilir.

Fortepiano texnikasının inkişafında ritmik cəhətdən dəqiq ifa da mühüm əhəmiyyət kəsb edir. Pianoçunun hər hansı mürəkkəb epizod, passaj və s. üzərində texniki işi ilk növbədə musiqi parçasının ritmik baxımdan cilalanması ilə başlanmalıdır. Ritmik dəqiqsizlik və texniki "xətalar" bir qayda olaraq eyni nişanın müxtəlif tərəfləridir.

Adətən pianoçu tərəfindən hər hansı epizod ağır tempdə qeyri-ritmik çalınırsa, deməli o, cəld tempdə də texniki cəhətdən alınmayacaq. Təcrübə sübut edir ki, hərəki-texniki dəqiqsizliklər əsasən tələsdikdə, tempi məntiqsiz surətdə sürətləndirdikdə, yəni qeyri-ritmik ifada baş verir. Belə hallarda adətən ifa tempinin ağırlaşdırılması, epizodun ritmik cəhətdən təshih edilməsi, dəqiq ritmik ifa bacarığının aşılanması tövsiyə edilir.

Pianoçunun hərəki-barmaq motorikasının vacib komponentini sürət, yəni cəld və çevik ifa bacarığı təşkil edir. Qeyd etmək lazımdır ki, bu, əsas etibarilə fitri bacarıqdır. Belə ki, orqanizmin müəyyən psixofizioloji xüsusiyyətləri fortepianoda ifa zamanı hərəki-motor cəldliyini, itiliyini təmin edir.

Digər tərəfdən ifa cəldliyi tədris prosesində səmərəli şəkildə inkişaf etdirilir və onun formalaşmasının əsas prinsipi - pianoçunun royal arxasında iti düşünməyi, eşitməyi və görməyidir. Yəni, musiqi hərəkətinin nəhayətsiz dəyişkənliyində dərhal, asanlıqla və dəqiq bələdləşmək, bütöv musiqi quruluşu və ayrı-ayrı detalları zehnən təsəvvür etmək bu bacarığın göstəricilərindəndir. İfa sürəti çalınan notların cəld, aydın və dəqiq fiksasiyasını şərtləndirir.

İfa cəldliyinə nail olunmasının daha bir mühüm prinsipi barmaq hərəkətlərinin "qənaətcilliyidir". Belə ki, ifa cəldliyi barmaqların minimum amplitudu, ifa hərəkətlərinin daha qənaətli, dəqiq, ən əsası öncədən düşünülməsinə tam mütənasibdir. Təsadüfi deyil ki, pedaqoq-pianoçular ifa prosesində bütün artıq hərəkətlərdən çəkinməyi tövsiyə edirlər: dönmələr, amplitud və s. Təcrübə göstərir ki, barmaq cəldliyinə malik olan pianoçular fortepiano texnikasının sərhesablığını, enerjinin mümkün qədər qənaətlə istifadə olunmasını, hər bir ifa hərəkətinin minimum amplitudunu, jestikulyasiyanın məhdudluğunu əsas prinsiplər hesab edirlər.

Konsert ifaçıları arasında məşhur olan aforizmi nəzərə çatdıraq: "Texnika - üstəgəl (plyus) qeyri- adilik deyil, artıq olanın çıxılmasıdır (minus)". Fortepiano ifa hərəkətlərinin qənaətcilliyi barmaq fəallığı ilə də sıx əlaqədar olaraq bir tərəfdən təbiətin bəxş etdiyi istedadın, digər tərəfdən isə xüsusi çalışmalar və gündəlik işin nəticəsidir.

Fortepiano texnikasının mühüm aspekti davamlılıq, iradəlilik, yəni cəld, dəqiq və uzun müddət yorulmadan məşq etmək bacarığıdır. Pianoçunun davamlılığı psixofizioloji keyfiyyətlər məcmusu və ifaçılıq formasının inkişaf səviyyəsi ilə müəyyənləşir. Başqa sözlə, pianoçunun əl hərəkətlərinin düşünülməsi, ifa prosesində yaranan əzələ gərginliyinə (sıxılma) qarşı durmaq bacarığına yiyələnmək kimi məsələlər qarşıya qoyulur. Hər bir əzələ çəngi, yaxud fiziki gərginlik yaradıcı prosesə, hisslərin aydın ifadəsinə, musiqi təfəkkürünün daxili işinə mane olur.

Ona görə not mətninin canlandırılması kimi yaradıcı prosesə başlamazdan əvvəl ifa davamlılığı, əzələ sərbəstliyinə nail olmaq vacibdir. Qeyri-ixtiyari yaranan əzələ gərginliyi pianoçunun həm orqanizminin təbii psixofizioloji vəziyyətinə, həm də hisslərinin izharına şübhəsiz ki, mənfi təsir göstərir.

Gərginliyin yaranma səbəbləri müxtəlifdir: bura həm musiqiçinin ifa prosesində yaranan emosional həyəcanı və nevrozu, həm də ifa hərəkətlərinin səciyyəviliyi və ifa mexanizminin kifayət qədər qaydaya salınmamasını aid etmək olar. Hər bir halda fortepiano texnikası üzərində işləyərkən pianoçu yadda saxlamalıdır ki, əzələ sıxılmaları adətən aşağıdakı səbəblərdən baş verir:

- çiyin, dirsək və biləklərin həddən artıq sıxılması;
- barmaq amplitudunun mübaliğəsi;
- ifa prosesinin yüngül və sərbəstliyini əngəlləyən barmaqların klaviaturaya artıq təzyiqi;
- pianoçunun ifa fəaliyyətinin müəyyən məqamında iştirak etməyən əzələ qrupunda, məsələn üz, boyun, kürək nahiyəsində "müşayiət edən" gərginliklərin yaranması;
- müəyyən vaxtda öz işini bitirmiş və sona qədər sərbəstləşməmiş əzələ qrupunda "qalıq" xarakterli gərginlik;
- pianoçuların bilavasitə texniki cəhətdən çətin və mürəkkəb epizodun ifası, yaxud klaviaturada sıçrayış və s. qarşısında yaranan qeyri-ixtiyari gərginlik.

Pianoçudan əl və bədənin digər hissələrindən gərginliyi çıxarmaq tələbi, "sərbəst əl" ilə çalmaq tövsiyəsi heç də qeyri-mütəşəkkil , "zəif" ifa hərəkətlərini təbliğ etmir. Pianoçunun sərbəst əlləri anlayışı ifa prossesində musiqi təcəssümü baxımından əsaslanan əlverişli, münasib əzələ gərginliyini təxmin edir ki, bunlar bədii-yaradıcı fikrin həyata keçməsi prosesinə nəinki mane olmur, hətta yardım edir. Mahiyyət etibarilə, ifa texnikasının əsas formulu, onun əsas məzmunu sürət (barmaq hərəkətlərinin qənaəti və fəallığı), ritmik dəqiqlik, səslənmənin rəvanlığı və həmçinin dayanıqlıqdır.

Müasir həyat öz fəal tempi, texniki tərəqqisi ilə şübhəsiz ki, bütövlükdə musiqi sənətinin və ifaçılığının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu mühüm faktorlar hazırki dövrdə musiqi ifaçılıq sənətinin inkişafında texnisizmin nəzərə çarpacaq dərəcədə üstünlüyünü şərtləndirir.

**Bu gün milli mədəniyyəti qoruyub gələcək nəsillərə ötürmək vəzifəsi kifayət qədər aktualdır. Bununla bağlı musiqiçi-ifaçıların yetişməsində sırf mexaniki və birtərəfli yanaşma, texnisizmin bu istiqamətdə inkişafı real təhlükə yaradır. Məhz ona görə, musiqi ifaçılıq sənətinin müasir təcrübə və nəzəriyyəsində ifaçılıq prosesinin bədii və texniki komponentlərinin qarşılıqlı əlaqəsi probleminin aktuallığı xüsusi əhəmiyyət kəsb edir.**

**Aynur XƏLİLOVA,**
*Ü. Hacıbəyli adına BMA -nın müəllimi*

## Литература

1. Г.Г. Нейгауз Об искусстве фортепианной игры. М., Музыка, 1982.
2. Видные деятели азербайджанской фортепианной культуры. /Сост.-ред. Т.А. Сеидов. Баку: Ишыг, 1988.
3. Современные проблемы воспитания исполнителя. Беседы с профессорами Московской консерватории. //Музыкальное исполнительство и современность. Вып.2, М.: 1997, с.131-153.

**Резюме**

**А.Х.Халилова: " О некоторых проблемах пианистической техники".**

В статье автор анализирует основные компоненты пианистической техники, такие как ритмическая и звуковая ровность, пространственная точность, беглость, выносливость и т.д. Автор также раскрывает значимость рационального подхода к ее формированию.

**Summary**

**A.Kh.Khalilova: "About some problems of piano skill"**

İn the article the author analyses such dominant components of piano skill as: rhythmic and vocal regularity, accuracy, promptness, durability. The author also uncovers the meaningfulness of correct approach to the skill's formation.

Təqdim etdi: BMA-nın musiqi tarixi kafedrası
Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor Tamella Kəngərli